Səh. 2 Ramazanı kirlətməyin! – Esmira Ələkbərli

Səh. 3 Peşəkar, yoxsa peşəkar – Binəli İslamoğlu

Səh. 5 Kişinin kimliyini təsdiqləyən bəlgə – Afiq Muxtaroğlu

Səh. 6 Anam süpürgəçi olduğuna görə utanırdım

Səh. 2 Gerçəyə dönən xəyal – Hacı Bəkiroğlu

Səh. 4 YERLİ BOLONYA TƏHSİL SİSTEMİ: VAXT İTKİSİ, YOXSA ZƏRURƏT

Səh. 7 Ağa Məhəmməd şah Qacarın Tiflis şəhərinə hücumu – Aleksandre Orbeliani



İCTİMAİ QƏZET ❁ yeniyolqazeti@gmail.com ❁ “იენი იოლი” საზოგადოებრივი გაზეთი ❁ HAQQIN SÖZÜ – SÖZÜN HAQQI

31 MART 2025-Cİ İL № 06 (223)

# Yeni YOL

Qəzet 17 iyun 2015-ci il tarixindən nəşr olunur.


## TÜRKİYƏ GÜRCÜSTANA HÜCUM TÜFƏNGLƏRİ HƏDİYYƏ EDİB



Türkiyə Silahlı Qüvvələrinin Xüsusi Əməliyyatlar Komandanlığı Gürcüstan Müdafiə Qüvvələrinin Xüsusi Əməliyyatlar Komandanlığına müxtəlif növ hücum tüfəngləri hədiyyə edib.

Silahların təhvil verilməsi ilə bağlı keçirilən tədbirdə Gürcüstan Müdafiə Qüvvələrinin komandan müavini, general-mayor Zaza Çxaidze, Xüsusi Əməliyyatlar Komandanı, polkovnik Teimuraz Qlateşvili, Türkiyənin Gürcüstandakı səfiri Ali Kaan Orbay və Türkiyənin müdafiə attaşesi, polkovnik İlhan Oktendural iştirak ediblər.

Tədbir çərçivəsində qonaqlar silahları incələyib, onların texniki-taktiki xüsusiyyətləri ilə tanış olublar. Daha sonra isə xüsusi təyinatlı qüvvələrin bazasında təşkil olunan sınaq atışlarında iştirak ediblər.

Gürcüstan və Türkiyə arasında müdafiə sahəsində uzunmüddətli və strateji əməkdaşlıq mövcuddur. Snayper tüfənglərinin Gürcüstan xüsusi təyinatlı qüvvələrinə təhvil verilməsi də bu əməkdaşlığın növbəti nümunəsidir.

## GÜRCÜSTAN TÜRKİYƏYƏ YENİ SƏFİR TƏYİN EDİB



Baş nazir İrakli Kobaxidzenin fərmanına əsasən Arçil Kalandiya Gürcüstanın Türkiyədəki yeni səfiri vəzifəsinə təyin olunub.

Arçil Kalandiya 2025-ci il aprelin 1-dən etibarən səlahiyyətlərinin icrasına başlayacaq.

A.Kalandiya 2018-ci ildən Gürcüstanın Çindəki səfiri vəzifəsində çalışıb. 2018-2024-cü illərdə Gürcüstanın Türkiyədəki səfiri isə Giorgi Cancqava olub. O, bu yaxınlarda Gürcüstanın Birləşmiş Ərəb Əmirliklərindəki səfiri vəzifəsinə təyin edilib.

**Qeyd edək ki, Türkiyə ilə yanaşı İsveçrə və Kubaya da yeni səfirlər təyin edilib. Gürcüstanın İsveçrədə yeni səfiri Şota Qetsadze, Kubada isə Qriqol Baramidze olacaq.**

## 2008-Cİ İL MÜHARİBƏSİ İLƏ BAĞLI ARAŞDIRMANIN NƏTİCƏSİ QALMAQAL YARADIB



Hakim “Gürcü Arzusu” partiyasının icraçı katibi Mamuka Mdinaradze 2008-ci il avqust müharibəsini araşdıran komissiyanın yekun rəyini açıqlayıb. Onun sözlərinə görə, bu araşdırma keçmiş hökumətin qərarları ilə bağlı ciddi suallar doğurub və cəmiyyətdə müzakirələrə yol açıb.

Mdinaradze bildirib ki, araşdırma komissiyası Gürcüstanın o zamankı prezidenti Mixeil Saakaşvilinin 2008-ci il avqustun 7-si saat 23:45-də hərbi əməliyyatlara başlamaq haqqında əmr verdiyini müəyyən edib. Bu faktı həmin dövrdə Silahlı Qüvvələrin Baş Qərargah rəisi olmuş general Zaza Qoqava təsdiqləyib.

Bundan əlavə, komissiyanın hesabatında iddia olunub ki, “Vahid Milli Hərəkat” hökuməti müharibə ehtimalı barədə məlumata malik olsa da, Kodori və Tsxinvali bölgələrinin dinc əhalisini xəbərdar etməyib, nəticədə çox sayda mülki şəxs həlak olub.

Həmçinin araşdırmanın diqqət çəkən məqamlarından biri də Gürcüstanın keçmiş iqtidarının müharibədən iki ay sonra Avropa Şurası Parlament Assambleyasının (AŞPA) hərbi əməliyyatlara məhz Gürcüstanın başladığının əks olunduğu və gürcü əsgərlərin hərbi cinayətlərdə ittiham edildiyi qətnaməsini dəstəkləməsi olub.

Araşdırma nəticələrinin ictimaiyyətə açıqlanması Gürcüstanda siyasi diskussiyaları daha da qızışdırıb. Müxalifət bu iddiaların siyasi motivli olduğunu əsas gətirərək araşdırmanın obyektivliyinə şübhə ilə yanaşır.

## VAHİD MİLLİ HƏRƏKAT PARTİYASI SEÇKİLƏRDƏ İŞTİRAK EDƏ BİLMƏYƏCƏK



Gürcüstanın keçmiş prezidenti Mixeil Saakaşvilinin təsis etdiyi “Vahid Milli Hərəkat” və ona bağlı partiyalar konstitusiyaya zidd elan olunacaq və bundan sonra seçkilərdə iştirak edə bilməyəcək.

Bunu hakim Gürcü Arzusu – Demokratik Gürcüstan Partiyasının icraçı katibi Mamuka Mdinaradze keçirdiyi brifinqdə deyib.

“İndiki mərhələdə aydındır ki, komissiyanın rəyi bu partiyaların konstitusiyaya zidd elan edilməsi üçün möhkəm hüquqi baza olacaq və mən əminəm ki, Konstitusiya Məhkəməsi obyektiv qərar verəcək”, – deyə M.Mdinaradze bildirib.

Beləliklə, “Vahid Milli Hərəkat” və ona bağlı partiyalar nəinki yerli özünüidarə orqanlarına seçkilərdə, heç bir başqa seçkidə iştirak edə bilməyəcəklər.



# GERÇƏYƏ DÖNƏN XƏYAL

Hacı BƏKİROĞLU
haci-bekiroglu@hotmail.com

Hər bir insanın ömründə heç olmasa bir dəfə görmək arzusunda olduğu bir şəhər, bir məkan mütləq vardır. Bəziləri üçün bu yer Hollivud, digərləri üçün Roma, lakin mənim ən böyük və qəlbimin dərinliklərindən gələn arzum Harameyn, yəni iki müqəddəs şəhər – Məkkə və Mədinə idi. Şükürlər olsun ki, Rəbbimin lütfü ilə bu müqəddəs yerləri dünya gözü ilə görmək, orada olmaq və ibadətlər etmək mənə nəsib oldu.

Bir axşam gözlənilməz bir telefon zəngi həyatımın dönüş nöqtəsinə çevrildi. Sual sadə olsa da, məni daxili həyəcan və sevinc girdabına saldı: "Ümrə ziyarətinə getmək istəyirsinizmi?" O anda sevincdən sözlərimi tapa bilmədim. İlk anlarda bu sualı zarafat sandım, lakin işin ciddiliyini anladığımda həyəcanla və sevinc göz yaşları ilə cavab verdim: "Bu sualı verməyə ehtiyac yoxdur, mənim adımı birbaşa qeyd edəydiniz".

Vaxt gəldi və biz müqəddəs ziyarətə doğru yola çıxdıq. Bu səfər Səudiyyə Ərəbistanı kralı Salman bin Əbdüləzizin dəvəti və Bütün Gürcüstan Müsəlmanları İdarəsinin, xüsusən də müfti Etibar Eminovun böyük təşkilatçılığı ilə baş tutdu. Bu fürsətdən istifadə edərək, bu müqəddəs səfərimizə vəsilə olan, əməyi keçən hər kəsə – müfti Etibar bəyə, məsləhətçi Musa Hacıyevə, həmçinin mənə zəng edərək bu xoş xəbəri çatdıran müfti Bəxtiyar Tanrıverdiyevə dərin təşəkkürümü bildirirəm.

Mədinəyə çatdığımız an ürəyimdə fərqli duyğular yüksəlməyə başladı – sevinc, şükür, həyəcan bir-birini əvəz edirdi. Otelə çatdıqda və başımı qaldırıb Peyğəmbər məscidinə bir neçə addım məsafədə olduğumu gördükdə göz yaşlarımı saxlaya bilmədim. Qəlbimin dərinliyində əvvəllər heç hiss etmədiyim bir duyğu ilə üz-üzə idim – Allahın mənə bəxş etdiyi bu lütfü üçün sonsuz şükür edirdim.

Dörd gün ərzində Mədinədə, ruhumuzun mənəvi qidasını tapdığı bu şəhərdə ibadətlə dolu günlər keçirdik. Peyğəmbər məscidində qıldığımız namazlar, etdiyimiz dualar, bu müqəddəs məkanda keçirdiyimiz hər an mənim üçün yeni bir ruhani doğuluş oldu. Quba məscidini, Uhud dağını və digər müqəddəs yerləri ziyarət etdik, hər biri mənə ilahi bir dərs verdi.

Daha sonra ehramlarımızı geyinərək Məkkəyə doğru yola çıxdıq. Miqat sərhədində ümrə niyyəti edərkən bir başqa mənəvi mərhələyə qədəm qoyduğumu hiss etdim. Ağ ehramlara bürünərək dünya həyatını bir neçə saatlıq da olsa arxada qoyduq. Bu ehram insana ölümü, axirəti xatırladır və həyatda etdiyimiz əməllərin nə qədər önəmli olduğunu dərk etdirir. Əməllərimizi yerinə yetirmək üçün hələ vaxtımız olduğu halda onları laqeydliklə keçirsək, ölüm gəldikdə artıq heç nəyi dəyişdirə bilməyəcəyimizin fərqinə varırıq.

Məscidül-Həramı və Kəbəni gördüyüm an isə mənim üçün həyatımın zirvə anlarından biri idi. Allahın evində dayanıb ilk səfdə namaz qılmaq, yönümü hər zaman çevirdiyim Kəbənin qarşısında Allaha dualar etmək – bu duyğular əvəzsiz idi. Göz yaşlarım ixtiyarsız olaraq axırdı və hər bir damla mənim üçün tərtəmiz mənəvi təmizlənmə idi. Bu ziyarət mənim həyatımın ruhani zirvəsinə çevrildi.

Bu müqəddəs ziyarət mənim üçün mənəvi bir yüksəliş, həyatın əsl mənasını anlamağa bir yol, gerçəyə dönən bir xəyal oldu. Bu təcrübəni hər kəsin yaşamasını, hər bir müsəlmanın Məkkə və Mədinəni görməsi, bu müqəddəs yerlərin feyzindən faydalanmasını diləyirəm.

# RAMAZANI KİRLƏTMƏYİN!



Ramazan ayını çox sevirəm. Yox, qəti mömin nöqteyi-nəzərdən qəbul etməyin. Mən islam tarixini az da olsa bilən və inanclara hörmət edən biriyəm. İnam, inanc bir başqa, fanat və maskalanmaq bir başqadır. Ümumiyyətlə, istər bütpərəst ol, istər tək Allah əqidəli, fərqi yox, içində bir Tanrı inancı varsa, məndənsən, düşünmüşəm. Elə islam da bunu deyib, Qurani-Kərim də eyni yazır.

Bax, elə Ramazan ayını da ona görə sevirəm ki, bu ay dünyanın mənəvi çəkisi bir az yüngülləşir. Necə ki, bədənimizdə hər hüceyrənin öz enerjisi var, birlikdə o enerji ilə ətrafımıza aura yaradırıq, eləcə də həmin auramızla dünyanı yükləyirik.

Gəlin etiraf edək ki, nə qədər ətrafımızda insanlar var ki, 11 ay haqq nədir bilməz, Ramazanda ya oruc tutar, ya iftar verər. Olsun, ildə bir ay adam kimi adam olmaq da insanlığa bir köməkdir. Mən bilmirəm, aylarla saxta üzlə, yalan əməllə, haramla yaşayan bu insanlar Tanrınımı aladadırlar, ya özlərinimi? Məgər Allah dediyimiz itaətin uzaqdamı ki, sən ona oyunbazlıq edəsən, maskalanasan, səni görmür yəni? Axı Tanrı dediyimiz bizim hər anımızın şahididir. Şahidə yalan haqqa böhtandır. Unutmayaq, bizim içimizdə bir mən də var. O mən vicdandır. Deməli, sən adam deyilsən, qorxudan oyundasan.

Bax, ona görə Ramazan ayını sevirəm ki, cudam kimi tanıdığım insanları saxta da olsa adam donunda görə bilirəm. Bəli, görürəm, amma daxilən onlara ürəkdən gülürəm. İnsanları birləşdirən haqqın qələbəsindən fərəhlənərək gülürəm. Nə gözəl ki, belə həmrəylik, həmfikirlilik yaradan dinimiz, inancımız var deyə qürurlanıram.

Ramazan insanlıq üçün nəfsin toxluğunun bəd nəfsə qələbəsi, Tanrının sağlığımıza töhfəsidir. Yəni 11 ay dayanmadan işləyən canımıza 1 ay istirahət verək dedilər. Nə gözəl! Bəs biz deyilənə əməl edirikmi? – Əsla deyərdim!

Gördüyüm, eşitdiyim, şahid olduqlarım qənaətiylə bizim cəmiyyət hələ də dinimizin mənəvi və maddi əsaslarını dərk etmədən kütlə dəyərinə daha çox əhəmiyyət verir.

Ramazanda ən xoşladığım an iftar süfrəsidir. Adətən tək oluram, dua edib su içmək anında sanıram Tanrı qarşımda məni dinləyir, mənim dünyamıza salamatçılıq diləyimi eşidir və mütləq qəbul edəcək! Bu cür gözəl hisslərə saxtakarlıq qatmaq ən azı vicdana qarşı xəyanət yox, cinayətdir.

Ramazanda bəzi insanlar oruc tuta bilmədikləri üçün iftar süfrəsi təşkil edir. Mən, əlbəttə, öz evlərində açılan iftar süfrələrindən danışıram. O süfrədə nələr olmur. Əslində gün ərzində ac qalan adama yaxşılıq əvəzinə pislik etmiş olurlar. Bu başqa bir mövzu. O dəbdəbəli iftar süfrələri izafı xərcdir, o xərcə bir xeyirxah iş etmək daha böyük savab olardı, məncə.

Həyatda bir-birinin əksi olan heç nə yox. Barmaq izlərini belə fərqləndirən Tanrı elə insanları da beş barmağımız qədər fərqli düşüncədə və qavrayışda yaratdı. İstəsək belə bu qanunları dəyişə bilmərik.

Sadəcə arzu edirəm, arzu edirəm ki, kaş insanlar tək Ramazanda yox, o qalan 11 ayda da cudamlıqdan çıxıb adam kimi adam olaydılar. Olmazmı nahaq danışmayaydıq, haram işlər görməyəydik. Axı yalnız Ramazanda yadlarına düşən Quranı-Kərim elə müasir konstitutsiyadır. Orada günah dedikləri burada cinayət məcəlləsi ilə cəzalanır.

İslamın hər addımı əxlaqi, tərbiyəvi, sağlam təməl üzərində insanı və insanlığı düşünən bir yoldur. Bu yol bizim yolumuzdur. Gəlin bu yolu çirkləndirməyək, axı açdığımız yolla balalarımız yeriyəcək! Bəli, Ramazan saflıq ayıdır, bu saflığın aynasında tövbələnmək də mümkündür.

Növbəti Ramazanda saf duyğularla görüşənədək!

**Esmira ƏLƏKBƏRLİ**
*Marneuli rayonu Qaçağan 2 saylı ictimai məktəbin kimya-biologiya müəllimi*

# GƏNCLƏR ARASINDA TƏHLÜKƏLİ TENDENSİYA



Son zamanlar cəmiyyətimizdə narahatlıq doğuran bir tendensiya müşahidə olunur – bəzi gənclər arasında kriminal üslubda danışıq və davranış formalarının yayılması. Bu vəziyyət təkcə onların psixoloji və sosial inkişafına deyil, həm də ümumi ictimai nizam-intizama mənfi təsir göstərir. Bu mövzuya toxunmaq istəyim isə bir neçə gün öncə şahidi olduğum bir hadisə ilə bağlıdır.

Avtobusda olduğum zaman 13-14 yaşlarında iki oğlanın təsbeh oynatdığını gördüm. Təsbehin üzərində kriminal aləmdə simvolik qəbul edilən "vor" adlandırdıqları ulduz rəsmi var idi. Bir müddət sonra avtobusa təxminən 15-17 yaşlarında iki gənc mindi. Onlardan biri təsbehi uşaqların əlində görüb "Qardaş, pabratski, bunu mənə hədiyyə elə" dedi. Uşaq isə "Yox, bu bizə zondan yaxşı qardaşdan gəlib, verə bilmərik" cavabını verdi. Gənc isə narazılıqla "Bunlara bax, uşaq-muşaq təsbeh oynadır, hələ bir böyük qardaşa da vermirlər" deyə şikayətləndi. Bu dialoq məni dərindən narahat etdi. O yaşda uşaqların bu cür jarqonlardan istifadə etməsi və kriminal həyat tərzinin elementlərini mənimsəməsi düşündürücüdür. Bu hadisədə məni ən çox düşündürən isə həmin uşaqların təsbehin kriminal dünyada nəyi simvolizə etdiyini bilmələri, amma sadə bir ifadəni – sürücüyə gürcü dilində "saxlayın" deməyi bilməmələri idi. Bu, onların diqqətini hansısa mənasız və zərərli trendlərə yönəldib, əsas və vacib biliklərdən uzaq qalmalarının acı nümunəsidir.

Bu cür davranışların yayılmasının bir neçə əsas səbəbi var. İlk növbədə, sosial media və kütləvi informasiya vasitələrinin təsiri burada böyük rol oynayır. Bəzi filmlər, seriallar və sosial media platformalarında kriminal həyat tərzi "cəsarət", "güc" və "hörmət" anlayışları ilə əlaqələndirilir. Bu isə gənc və təsir altına düşməyə meyilli şəxslər üçün cazibədar görünə bilər. Eyni zamanda, bəzi ailələrdə uşaqlar böyüklərin davranışlarını təqlid edir və onların danışıq üslubunu mənimsəyirlər. Bundan başqa, məktəb və sosial mühit də bu cür təsirlərin formalaşmasında mühüm rol oynayır. Uşaqların ətraf mühitdə bu cür davranışları normallaşdıran qruplarla ünsiyyəti onların mənfi təsirlərə daha açıq olmasına səbəb olur.

Bu tendensiyanın fəsadları isə kifayət qədər ciddidir. Belə hallarda gənclərin gələcəkdə riskli və təhlükəli mühitlərə daxil olma ehtimalı artır. Düzgün sosial bacarıqlar və sağlam dəyərlər formalaşmadığı üçün onların peşəkar və şəxsi həyatına da zərər dəyə bilər. Eyni zamanda, cəmiyyətdə aqressiya və hörmətsizlik kimi halların artmasına şərait yaranır.

Bu problemin qarşısını almaq üçün bir sıra effektiv addımlar atmaq mümkündür. İlk növbədə, məktəblərdə və gənclər mərkəzlərində kriminal mədəniyyətin fəsadlarını izah edən dərslər keçirilməlidir. Gənclər arasında idman, incəsənət və sosial fəaliyyətlərə maraq yaratmaq da onların özlərini daha sağlam mühitlərdə ifadə etmələrinə kömək edər. Eyni zamanda, valideynlər və müəllimlər birlikdə çalışaraq gənclərin davranışlarını izləməli və onlara düzgün istiqamət verməlidirlər. Risk qrupuna daxil olan uşaqlar və yeniyetmələr üçün psixoloji dəstək proqramlarının hazırlanması da vacibdir.

Gənclərin bu cür təhlükəli təsirlərdən qorunması üçün cəmiyyət olaraq hər birimizin üzərinə məsuliyyət düşür. Onlara düzgün dəyərləri aşılamaq, sağlam mühitdə böyümələrinə dəstək olmaq və maarifləndirmə işlərinə daha çox diqqət ayırmaq vacibdir.

Bu cür təhlükəli təsirlərdən qorunmaq üçün hər birimizin üzərinə böyük məsuliyyət düşür, xüsusən də müəllimlərin. Gələcəkdə bir müəllim kimi yalnız fənnimi öyrətməklə kifayətlənmək istəmirəm. Mənim üçün əsas olan şagirdlərimə doğru yolu göstərmək, onlarda sağlam düşüncə formalaşdırmaq və onları zərərli təsirlərdən qorumaqdır. Həyat elədir ki, hər bir uşaq nə vaxtsa seçim qarşısında qalır – ya düzgün yol, ya da zərərli vərdişlər. Mənim arzum və məqsədim odur ki, şagirdlərim bu seçimi edərkən yanlış istiqamətə yox, doğru yola üz tutsunlar.

Mən istəyirəm ki, gələcəkdə mənim şagirdlərim yalnız bilik deyil, həm də güclü xarakter qazansınlar. Onlar pis vərdişlərə yox deməyi, çətin anlarda düzgün qərar verməyi və həyatlarında sağlam prinsiplərə sahib olmağı bacarsınlar. Çünki inanıram ki, hər bir gənc, əgər vaxtında ona dəstək göstərilsə, böyük uğurlar qazana və cəmiyyət üçün dəyərli şəxsiyyətə çevrilə bilər.

Gələcək gənclərin əlindədir. Onların sağlam, savadlı və düzgün dəyərlərə sahib olaraq böyüməsi isə müəllimlərin, valideynlərin və bütövlükdə cəmiyyətin əlindədir.

**Aytən FƏTULLAYEVA**
*Tbilisi Dövlət Universitetinin dəqiq və təbiət elmləri fakültəsinin 2-ci kurs tələbəsi*

# PEŞƏKAR, YOXSA PEŞƏKƏR



Binəli İSLAMOĞLU
binaliislamoglu@gmail.com

15 il Tiflis Azərbaycan Dram Teatrında peşəkar aktyor kimi çalışdım. Amma yenə də özümə peşəkar demədim. Çünki hələ öyrənəcəyim, oxuyacağım, gəzəcəyim, araşdıracağım, görəcəyim çox şey var.

Günümüzdə isə yuxudan oyanıb gözlərinin zığını silməmiş özlərinə peşəkar deyirlər (Söhbət təkcə öz sahəmdən getmir, ümumi danışıram). Ay bala, ay qadan alım, ay canım-gözüm, sən nə yatdın ki, nə yuxu görəsən?

Yaxşı, bəs peşəkar kimdir? – Gəlin əvvəlcə buna baxaq. Peşəkar gördüyü işdə usta, mütəxəssis olan, geniş təcrübəyə və möhkəm baza biliklərinə malik insandır. Peşəkar olmaq bir ayda, bir ildə qazanılan bir şey deyil. Bu illərlə zəhmət, təcrübə və davamlı öyrənmə tələb edən bir prosesdir.

Altı aydır Gürcüstanda elə yer qalmadı avtomobilimi usta yanına aparmayım. Hamısı özünə peşəkar deyir. Amma nə olsun? Yenə də düzəlmir ki, düzəlmir. Niyə? Çünki peşəkar usta yoxdur. İki gün usta yanında öyrənən biri özünə peşəkar usta deyir və nəticə göz qabağındadır. Hələ beləl변inə bəziləri müəllim deyəndə dəli oluram.

Yəni peşəkarlıq hər sahədə vacibdir. Adam əlinə bir fırça alır, Van Qoqun "Ulduzlu gecə" əsərini çəkir, bir həftə sonra elan edilir: Peşəkar rəssam Filankəs Filankəsovun sərgisidir. Axı bu nə vaxt peşəkar oldu? Siz belə adamlara bu adı verməklə, nənəmin sözü olmasın, yığvalını qara gətirirsiniz. Siz belə edəndə Tariyel Əliyevin ruhu sızlamazmı? Sızlamazmı İbrahim İsfanlının ruhu?..

Tamaşa gedir, Üzeyir Hacıbəyovun "Ər və arvad" tamaşası. Baş rolun aparıcısı Azərbaycan dilini bilmir, səhnədə özünü ora-bura vurur, hələ bu azmış kimi obrazını da yarada bilmir... Beləsinə də utanmaz-utanmaz peşəkar aktyor deyirlər.

Əzizlərim, bu işlər elə-belə olmur. Dörd kitab oxumaqla, üç film izləməklə sənətkar olmaq mümkün deyil. Səhnə təcrübəsi olmalıdır, mizan anlayışı olmalıdır, təklif olunmuş vəziyyətə dair biliyi olmalıdır insanın, bir sözlə, öz işində peşəkar olmalıdır. Yoxsa səhnədə hoppanmaqla aktyor olmaq olmaz. Sirk içində nə qədər meymun, fil, at hoppanır, təkcə hoppanmaqla bu işlər alınmır. İnsanın ilk növbədə tamaşaçı qarşısında bir duruşu olmalıdır. Yoxsa artistlik etməyə nə var ki?

Yadımdadır, rejissor Zurab Sixarulidze (ruhu şad olsun) bir gün iclas edirdi, hamını yığdı və dedi:

"Niyə lovğalanırsınız? Siz hələ peşəkar deyilsiniz, öyrənməli çox şeyiniz var. Mən hələ özümə peşəkar demirəm!" Halbuki o, Türkiyədə ad qazanmış böyük rejissorlardan biri idi. O, həmişə deyərdi: "İşinizi sevərək görün, peşənizi sevdirin, səhnədə obrazı göstərin, oynamayın". Bu gün isə səhnədə obrazdan çox oyun görürük – quru və pafoslu.

Aristotel deyir: "Hər sahədə peşəkar olmaq üçün üç şey lazımdır: bilik, təcrübə və sevgi". Deməli ki, əgər sənin öz sahən üzrə biliyin və təcrübən yoxdursa, sən ömür boyu göstərdiyin işi sevdirə bilməyəcəksən.

Ona görə də istər maşın ustası ol, istər rəngsaz, istər qaz çəkən, istər dərzi, istər asfalt vuran, istər taksi sürücüsü, istər müəllim, istər rəssam, istər aktyor, istərsə də rejissor ol, işində peşəkar olmalısan, peşəkər yox!

Bu arada qaxlılar "peşəkər" balaca çobana deyirlər.

# YERLİ BOLONYA TƏHSİL SİSTEMİ: VAXT İTKİSİ, YOXSA ZƏRURƏT



Təhsil həyatını SSRİ dövründə başa vuran bir şəxs üçün on iki il məktəbdə oxumaq ömründən bir-iki ilini boşa xərcləmək kimi görünə bilər. Onlar orta məktəbi onuncu və ya on birinci sinifdə bitirdikləri üçün on iki il oxumaq onlara vaxt itkisi kimi gəlir. Bu yanaşmanın kökündə həm tarixi vərdişlər, həm də təhsil sistemlərinin zamanla dəyişməsi dayanır. SSRİ-də təhsil sistemi uzun illər ərzində 10 illik model əsasında qurulmuşdu. 1958-ci ildən sonra bəzi respublikalarda və bölgələrdə 11 illik sistem tətbiq edilsə də, əksər insanlar üçün 10 illik təhsil standart olaraq qalırdı. Bu sistemdə məzunlar daha erkən yaşda əmək bazarına atılır və ya ali təhsil müəssisələrinə daxil olurdular. SSRİ sistemində təhsil daha intizamlı və akademik nəticələrə yönəlmiş olsa da, şagirdlərin şəxsi inkişafı və yumşaq bacarıqlarının inkişafına az diqqət yetirilirdi. Bu modeldə əsas məqsəd məzunları sürətli şəkildə işçi qüvvəsinə çevirmək və ixtisaslı kadr kimi yetişdirmək idi.

Statistika göstərir ki, 1980-ci illərdə SSRİ-də orta təhsil səviyyəsi üzrə məzunların 70 %-i texniki peşə məktəblərinə və institutlara yönəlirdi. Bu sistemdə şagirdlər əsasən konkret bir ixtisasa yönəldilir və əmək bazarına tez inteqrasiya olunurdu. Amma heç nəyin əbədi olmadığı dünyada SSRİ də öz təhsil sistemi ilə tarix kitablarının səhifəsində öz yerini aldı. Buna baxmayaraq, bəzi ölkələrdə hələ də orta məktəb on bir illikdir. Lakin bu gün Gürcüstan həmin ölkələrin siyahısına daxil deyil.

2006-cı ildən etibarən Gürcüstan Bolonya prosesi adlanan Avropa standartlarına uyğun olan təhsil sisteminə keçib. Bolonya prosesi 1999-cu ildə İtaliyanın Bolonya şəhərində 29 Avropa ölkəsinin təhsil nazirləri tərəfindən imzalanan Bolonya Bəyannaməsi ilə rəsmən başladı. Prosesin əsas məqsədi Avropa ali təhsil məkanının yaradılması, Avropa ölkələri arasında təhsil sistemlərinin uyğunlaşdırılması və Avropa ali təhsilinin dünya miqyasında rəqabət qabiliyyətinin artırılmasıdır. Gürcüstanda təhsilin bu sistemə uyğunlaşdırılmasının əsas məqsədi şagirdlərin bilik və bacarıqlarını beynəlxalq standartlara uyğunlaşdırmaq, onların ali təhsil müəssisələrinə daha hazırlıqlı daxil olmasını təmin etməkdir.

Bolonya prosesi təhsil sistemini orta və ali təhsil olmaqla iki əsas pilləyə bölür. Bolonya sisteminə keçid çərçivəsində Gürcüstanda orta təhsil müddəti 12 ilə çatdırılmışdır. Bu sistem ibtidai (6 il), əsas orta (3-4 il) və tam orta təhsil (2-4 il) olmaqla üç pilləyə ayrılır. İbtidai siniflərdə şagirdlər oxumaq və yazmaq, ədəd və rəqəmləri tanımaq, toplama-çıxma, vurma-bölmə kimi riyazi əməlləri; ətraf mühit, heyvanlar, bitkilər, hava, su və digər təbii hadisələr haqqında ilkin və təməl biliklərə sahiblənirlər. Əsas orta məktəbdə isə əsasən fundamental (ana dili və ədəbiyyat, riyaziyyat, fizika, kimya, biologiya, anatomiya və s.) fənlər tədris olunur. Bunlarla yanaşı təsviri incəsənət və musiqi fənləri də bu siyahıya daxildir, amma təəssüf ki, dırnaq içində tədris olunurlar.

Təsviri incəsənət dərsində şagirdlərə müxtəlif texnikalarla (akvarel, qrafika, heykəltaraşlıq və s.) işləməyi, kompozisiya qurmağı və vizual ifadə bacarıqlarını inkişaf etdirməyi öyrətməli, eyni zamanda, incəsənət tarixi və üslubları ilə tanış etməlidirlər. Musiqi dərsində isə şagirdlər musiqi nəzəriyyəsi, müxtəlif musiqi alətləri, ritm və melodiya anlayışları ilə tanış olmalı, həmçinin dünya və milli musiqi mədəniyyəti haqqında biliklər əldə etməlidirlər. Amma təəssüf ki, məktəblərimizdə nə akvarel var, nə də bir musiqi aləti. İl sonunda məktəbə təhvil verilən kitablar içərisində ən yeni qalanları da məhz elə bu iki fənnə aid dərsliklərdir. Bir zamanlar həmin dərsliklər gürcü dilində olduğu üçün heç qapağını da açan yox idi. Dərs uşaqlara "ürəyiniz nə istəyir çəkin" metodu üzrə keçirilirdi. Sonradan artıq kitablar Azərbaycan dilində çapdan çıxmağa və ya tərcümə olunmağa başladı. Amma yenə də "metod" dəyişmədi. Musiqi dərsində isə "metod" 1990-cı illərdə çap olunmuş kitabdan bəstəkarların avtobioqrafiyasını dəftərə köçürüb, evdə öyrənib, gələn dərs danışaq ardıcıllığından ibarət idi və yenə də belədir. Ona görə də bizim uşaqlarda musiqiyə, rəsmə, teatra, heykəltaraşlığa maraq yoxdur. Çünki onlar bunların nə olduğunu bilmirlər, tanımırlar.

Tam orta məktəbdə isə şagirdlər əsasən ali təhsil almaq üçün universitetə və ya peşə məktəblərinə hazırlaşırlar. Artıq məktəblərdə fənlərin sayı azalır və əsas 4-5 fənn tədris olunur. Tam orta məktəbi başa vurduqdan sonra Bolonya sisteminin ikinci pilləsinə, ali təhsilə keçid alırıq. Ali təhsil aşağıdakı kimi qurulub:

Bakalavriat (3-4 il) – Tələbələr ali təhsil üzrə baza biliklərini əldə edirlər. Magistratura (1-2 il) – Daha ixtisaslaşmış biliklər və elmi araşdırmalara yönəlik təhsilə imkan verir. Doktorantura (3-4 il) – Akademik və elmi-tədqiqat yönümlü təhsil mərhələsidir. Bu pillədəki mərhələləri keçən tələbələr əsasən diplom almağa konsentrasiya olurlar. Özünü inkişaf etdirmək, xüsusi bacarıqlar qazanmaq və ya bacarıqlarını inkişaf etdirmək bizə bir az uzaqdır. Ona görə də sonda seçdiyimiz ixtisas üzrə işləyə bilmədikdə və ya ümumiyyətlə, işsiz qaldıqda təhsil sistemimizi və ölkədəki ekonomik və siyasi vəziyyəti günahlandırırıq. Məktəbdə yarımçıq və yetərsiz metodlarla təhsil sistemimizin fokuslandığı məqsədindən uzaq qaldığımız azmış kimi, universitetin bizə təqdim etdiyi imkanlardan da istifadə etməyərək vaxtımızı puç edirik.

Nəticə olaraq, Bolonya sistemində 12 il təhsil almaq vaxt itkisi deyil, əksinə, keyfiyyətli və məqsədyönlü təhsil üçün bir fürsətdir. Əsas problem isə bu imkanlardan düzgün istifadə olunmaması və təhsilin formal yanaşmalarla məhdudlaşmasıdır. Vaxt itkisi bizə məktəblərdə yarı-yarımçıq keçirilən dərslər və universitetdə "başımızı dolandırmağımızdır".

**Çiyalə OSMANOVA**
*Tbilisi Dövlət Universitetinin sosial və siyasi elmlər fakültəsinin 1-ci kurs tələbəsi*

## MEDALÇI ŞAGİRDLƏRİN SAYINA GÖRƏ TBİLİSİ ÖNDƏDİR



2023-2024-cü tədris ilində medal alan şagirdlərin sayına görə Tbilisi birinci yerdədir. Paytaxtın ictimai məktəblərinin 1617 məzunu məktəbi qızıl, 451 məzunu isə gümüş medalla bitirib. Qeyd edək ki, əlaçı məzunlara görə Vake-Saburtalo rayonu liderlik edir.

Medalçı şagirdlərin sayına görə Tbilisidən sonra İmereti gəlir. İmeretidə 1125 şagird məktəbi medal alaraq bitirib. Ən az medalçı isə (40 medal) Raca Leçxumi – Kvemo Svaneti bölgəsindədir.

*2023-2024-cü tədris ilində Kvemo Kartli bölgəsində medalçı şagirdlərin sayı isə bu cürdür:*

***Rustavi – 160 qızıl, 25 gümüş;***
***Marneuli – 47 qızıl, 19 gümüş;***
***Qardabani – 45 qızıl, 10 gümüş;***
***Bolnisi – 40 qızıl, 8 gümüş;***
***Tsalka – 28 qızıl, 9 gümüş;***
***Tetritskaro – 19 qızıl, 7 gümüş;***
***Dmanisi – 10 qızıl, 1 gümüş.***

Ötən tədris ilində ümumilikdə məktəbi 6217 şagird fərqlənmə ilə bitirib. Onlardan 4988-i qızıl, 1229-u isə gümüş medal qazanıb.

*Mənbə: etaloni.ge*

## PEŞƏ MƏKTƏBLƏRİNƏ MÜRACİƏT EDƏNLƏRİN SAYI ARTIB



Milli Statistika Xidmətinin məlumatına görə, 2024-cü ildə Gürcüstanda 122 peşə təhsili müəssisəsi fəaliyyət göstərib. Onlardan 75-i ictimai, 47-si özəl olub. 2024-cü ildə peşə təhsili müəssisələrinə 17,1 min tələbə qəbul olub. Onlardan 49,7 faizi qadın, 50,3 faizi kişidir.

2023-cü illə müqayisədə tələbələrin qəbul göstəricisi 10,3 faiz artıb.

Regionlara əsasən, qəbul olmuş tələbələrin sayına görə Tbilisi şəhəri (36,4 %), Acara (18,6 %), İmereti (11,9 %), **Kvemo Kartli (10,1 %)**, Sameqrelo-Zemo Svaneti (8,9 %) və Kaxeti (4,8 %) liderlik edir.

2024-cü ildə peşə təhsili proqramlarına xüsusi ehtiyacı olan 257 tələbə qəbul olub. Onlardan 31,1 faizi qadın, 68,9 faizi isə kişidir.

*Mənbə: edu.aris.ge*

# KİŞİNİN KİMLİYİNİ TƏSDİQLƏYƏN BƏLGƏ



*(əvvəli ötən sayda)*

"Motal papaq olmaq" papaq yiyəsinin el içərisində biabır olmasını ifadə edən deyimlərimizdən biridir. Ümumiyyətlə, papaqla motalın nə əlaqəsi var? Əvvəlcə bir buna diqqət yetirək. Fikrimiz qəribə səslənsə də, həqiqəti üzə çıxarmaq üçün düşündüyümüzü deməliyik. Güman etmək olar ki, yoxsulluqdan, əlacsızlıqdan adamın biri boşalmış motal dərisindən özünə papaq tikə bilərdi. Belə şəxsə cəmiyyətin münasibəti də birmənalı olmamalı idi. Onun bu hərəkətini təqdir edənlərin, bəyənib alqışlayanların sayı, əlbəttə, az olmalıydı. Şəxsin motal papağa sahib olması onun cəmiyyətdə yerini, statusunu da müəyyən etməliydi. Motalpapaqlıq şəxsin ictimai iyerarxiyada aşağı təbəqədən olmasını şərtləndirməli idi. Motal dərisindən papağa sahiblik və ya motalpapaqlıq sosial iyerarxiyanın ən aşağı pilləsində duranları anlatmaq üçün istifadə olunan istilaha bu cür çevrilə bilərdi. Beləliklə, heç kim motal dərisindən papaqlı olmağı da, motalpapaq olmağı da yaxınına buraxmaq istəməzdi. Şəxsin boşalmış motal dərisindən papaq geyməsinin, özünün və ya ailə üzvlərinin eldən dışarı bir hərəkətə görə motalpapaq olmasının cəmiyyət tərəfindən ikrahla qarşılanması təbii sayılmalıdır.

Papaq hər zaman kişi geyiminin ana ünsürlərindən biri olduğu üçün hamı gözəl papaq sahibi olmağa çalışır, ona xüsusi qulluq etməklə yanaşı, onun xüsusi şəkildə qorunmasına da diqqət yetirməli olurdu.

Artıq papağın kişilik, ərlik bəlgəsi olduğunu bilirik. Kişi öz mənliyini qoruduğu qədər də, papağını qorumağa, onun qaydasında olmasına diqqət yetirməli idi. Adət-ənənəyə əməl etməyən, qeyri-etik hərəkətlər edən şəxs haqqında "Kişi deyil, papağı üşüdüyündən qoyur" kimi bir fikrin səsləndirilməsi əski insanın təbii haqqı idi. Hətta belə şəxsə el müdrikliyi "Papaq cəhənnəmə, sən başını qoru" kimi kinayə dolu bir məsləhət də verirdi.

Papaq atmaq kiməsə sataşmaq, kiməsə taxınmaq anlamında işlədilən söz birləşməsidir. Bəzən ifadə zarafatla söylənsə də, onun arxasında mübahisə, hətta münaqişə əlamətləri də gizlənə bilərdi. Kiməsə papaq atan şəxs özünü qarşısındakını dava-dalaşa təhrik edən, sanki onu duelə səsləyən kimi aparırdı ki, bu da, zarafatın axırının dava-dalaşla nəticələnməsinə gətirib çıxarırdı. O üzdən ki, qarşısına papaq atılan şəxs ipə-sapa yatmazın biri olardısa, sən kimə papaq atırsan deyərək, zarafatı ciddi qəbul edib, münaqişəyə girə bilərdi.

Bir qız uşağını papaqla vurduqda yıxılmazdısa onun artıq evlilik yaşına çatdığı düşünülürdü. Fikrimizcə, bu adət türk ağlının məhsulu ola bilməzdi. O üzdən ki, düşmənlərinin belə etiraf etdiyi kimi, qadına saygı düşüncəsinə sahib türklərin bu adəti çox sonralar başqa xalqlardan mənimsəmiş olmalarını, onların bu adətin müəllifi olmamalarını güclü bir ehtimal kimi söyləmək olar.

Papağı qoltuğunda gəzən şəxsin dərdi, problemi böyük olmalıdır. Niyəsini deyəkmi? Papağını qoltuğuna vurub gəzən kişi hansısa müşkülə düşüb, öz gücüylə, təkbaşına onun öhdəsindən gələ bilmir. Papağını qoltuğuna alan adamın yardıma ehtiyacı var. Özünə yaxın bildiklərinin təcili köməyi olmadan onun düşdüyü çuxurdan çıxması, özünü xilas etməsi mümkünsüz görünür. Papağı qoltuğunda gəzən kişi qapı-qapı dolaşmaqdan, umduğu qonum-qonşuya, qohum-əqrəbaya ağız açmaq onu mənən sındırıb, yorulub, götürüm düşüb.

Papağı boğazına keçən kişinin də durumu könül açan deyil. Maddi sıxıntıların onu hər yerdə təqib etdiyi açıq-aşkar hiss olunur. Bir az utancaqdır, bir az çəkingəndir. Kiməsə durumunu anlatmağa, düşdüyü problemi izah etməyə üzü tutmaz. Onun vəziyyətini yalnız hal əhli anlaya bilər. Görünən dağa nə bələdçi? Onun üzünə-gözünə, əyninə-başına baxmaq yetər ki, biçarənin halını anlayasan. Anlayana onun siri-sinçisi, idimi vəziyyəti anlatmaq üçün bəs edər.

Papaq çağırış nişanıdır. Onu başından çıxarıb, əlində yuxarı qaldıraraq yelləyən adamın köməyə ehtiyacı var.



Papaq eləmək haraydır, görənlərin köməyinə ehtiyac olduğunu bildirən vasitədir. Papaq etməklə kiməsə getdiyi yolun səhv etdiyini anlatmaq da mümkündür. Onun vasitəsilə yolunu düz getməyən birini doğru yola qaytarıb, savab da qazanmaq olar. Dəvət olunmadığı yerdə nahaq gəldiyini, gəldiyindən peşman olduğunu dilə gətirən adama belə deyirlər: "Səni papaqmı eləyib çağırmışam/çağırmışıq?". Ona bununla dəvətsiz, çağırışsız təşrif buyurduğu halda şikayət etməyinin yersiz olduğunu anladırlar.

Papağını yan qoyub gəzən kişi hələ gəncdir. Hələ həyatın bərkini-boşunu görməmiş olmalıdır. Əli cibində, kefi alabuludda oynayan bu gəncin işi könül məsələsi də ola bilər. Haradasa bir gözəltisinin olması, hansısa bir çəpər arxasından onun yan duran papağına oğrun-oğrun baxması da mümkündür. Olsun ki, günü qara olmamışın da papağını yan qoyub gəzən bu gənclə him-cimləşməsi var. Ola da bilər ki, həmin gəncə saqqızını oğurladıb. Olmayan işdirmi?

Papağının dalını qaldıran kişinin bir az hərdəmxəyal olmasını, bir az dünyanın bala dərdini eyninə almamasını qıraqdan baxınca anlamağın bir elə çətinliyi də yoxdur. Bir az əhli-kefliyi də var, hərdən başını açıb tay-tuşları ilə bulaq başında, gözdən iraq, könüldən qıraq bir yerdə əylənməyi də. Bir az özünə qapanması, bir az da özündən razılığı papağının duruşundan bəllidir. Papağının dalını qaldırıb gözünün üstünə basan birinin yekəxanalığı bir yana, əlləm-qəlləm işlərdə əlinin ola biləcəyi də mümkündür. Yoxsa adam durduğu yerdə papağının dalını niyə qaldırsın, gözlərini niyə gizlətsin ki? Beləsindən iş əskik deyil.

Papaq sevinc nişanıdır, qələbə rəmzidir. Müəyyən bir müşkülünü çözən, məsuliyyətli bir işi uğurla sonlandırıb, rahatlaşan kişinin sevincdən papağını göyə tullaması görünməmiş bir iş deyil. Düşmənini yenən bir əsgərin papağını göyə atmaqla sevincini büruzə verməsi də nadir hadisə olmamalıdır. Keçib gəldiyi tarix boyu dəfələrlə qanlı savaşlar görən əsgərin sevincini bu cür izhar etməsi onun təbii haqqı deyilmi?

Bağlanılan sazişin tərəflərin ürəyincə olması, iştirakçı tərəflərin mövqeyini əks etdirən razılaşmanın əldə olunması zamanı kiminsə papağım/papağımız da razıdır deməsi sazişin ədalətli olmasına dəlalət edir. Və ya kişi gördüyü işdən gözlədiyindən artıq qazanc əldə etdikdə, məsələn, becərdiyi bağdan gözlədiyi məhsuldan çox məhsul götürdükdə, satdığı malı yaxşı qiymətə satdıqda papağının da razı olduğunu söyləyir. Burada sahibinin papağına bir canlı kimi, bir məhrəm dost kimi münasibət sərgilədiyini sezmək mümkündür. Az qala sahibi papağı ürəyi, beyni ilə eyniləşdirib, ona bədəninin ən dəyərli əzası kimi dəyər verir.

Papağın sehirli bir qüvvəyə malik olması, özündə dəyərli bir şəxsi gizlətdiyi işarə diliylə anladılır. "Papaq altda oğullar var" xalq deyimi bu işarənin təsdiqidir. Bu deyim tarixin istənilən dövrü – dünən üçün də, bu gün üçün də, sabah üçün də keçərlidir. Xalqın adsız qəhrəmanı yardıma qoşmaq, igidlik göstərmək üçün məqam gözləyir. Məqam gözləyir ki, özünü təsdiq edə bilsin, ad alsın. Dünənə qədər adsız biri olanın, kütlədən heç nəylə fərqlənməyənin qəhrəmana çevrilməsi bu cür baş verir. Adsız qəhrəmana Dədə Qorqud – el ağsaqqalı ad verir. Adsız qəhrəman Bamsı Beyrək olub, Buğac olub toplumun dəyərinə çevrilir.

Papağınızın uca olması diləyilə bir yazının da sonuna gəldik.

S. A.

Bu, bizim papaqla bağlı sayca ikinci yazımızdır. İllər əvvəl yazdığımız və "Xəzər", "Qarapapaqlar", "Sənəd" kimi mətbuat orqanlarında, Vahid Ömərlinin "Qarayazı" kitabında çap olunan birinci yazını əsas götürərək, ikinci bir yazını da ortaya çıxarmaq istəyimizin mövzu qıtlığıyla, təkrarçılıqla bağlılığa yozulmayacağına ümid edirik.

**Afiq MUXTAROĞLU**

# NÜMUNƏVİ MÜƏLLİM



Bir uşağın məktəbi sevməsində ən böyük rolu müəllim oynayır. İçərisində dəftər, qələm və bir neçə partanın olduğu dörd divar nə edə bilər ki uşaqlara? Müəllimin rəftarı uşaqda məktəbə sevgi və ya nifrət yarada bilər. Belə ki, bir uşaq məktəbə getməkdən çəkindikdə, əvvəl müəllimindən əmin olmalıyıq.

Bu yaxınlarda nümunəvi müəllimlə tanış oldum. O, bizə gürcü dili fənnini tədris edir. Onun adı Minurə müəllimdir. Minurə müəllim mənim əvvəlki yazımda bəhs etdiyim nümunəvi müəllim obrazına tamamilə uyur.

Bəzi müəllimlər elə davranırlar ki, onlara sual verə bilmirsən. Bu da şagirdin təhsilinə pis təsir edir. Əlbəttə, burada şagirdin tənbəl olması da rol oynayır. Ancaq bu fakt göz önündədir ki, bir müəllim nə qədər yaxşı dərs keçərsə şagird də bir o qədər yaxşı öyrənər. Minurə müəllimdən bir sualı 40 dəfə də soruşsan, başa salır. Onun digərləri ilə müqayisədə yaxşı dərs keçmək qabiliyyəti var. Digər dərslərdəki kimi təsvirə ehtiyac olmur, ancaq əminəm ki, olsaydı onu da çox gözəl edərdi.

Mən gürcü dilindən bir az zəifəm, bunu ona deyəndə məni xoş qarşıladı və vaxt ayırıb mənə dili necə asan öyrənməyin yollarını izah etdi. Dərsdə zəif olduğunu gördüyü şagirdlər üçün əlavə vaxt ayırıb dərsi tək-tək onlara başa salır. Onun köməyi ilə mən gürcü dilini daha yaxşı anladım. Buna görə ona borcluyam.

Əminəm ki, ona sual verdikdə, nəsə soruşduqda digərləri kimi "niyə qulaq asmırdın" desəydi mən gürcü dilində heç nə öyrənə bilməzdim. O, hər dərsdə yanıma yaxınlaşıb kömək məqsədi ilə danışdıqda onun üzündə təbəssüm yaranır, içimi bir hiss alırdı. Bu hiss məni ona yaxın edirdi. Həmin an ilk dəfə "ikinci ana" kəliməsi mənə qəribə gəlmirdi. Onda həqiqətən bir ana sevgisi hiss edirdim. Bu hiss məni ona qarşı həm sevgi, həm də hörmət yaradırdı. Əlbəttə ki, hər bir şagird müəlliminə hörmət etməlidir, ancaq əsas məsələnin bu hörmətin gerçək, yoxsa yalan olmasıdır? Bir şagird müəllimə öz istəyi ilə hörmət etmirsə bu, saxta hörmətdir.

Mənə elə gəlir ki, şagirdin müəllimə qarşı olan hörmətsizliyini bəzən müəllimin özü yaradır. Bəzi müəllimlərə şagirdlərin pis münasibət bəslədiyini görmüşəm. Bu da elə o müəllimlərin rəftarına qarşılıq verilən hörmətdir. Mən indiyənə qədər Minurə müəllimin dərsində kiminsə yersiz hərəkət etdiyini görməmişəm. Müəllimin xoş rəftarı uşaqlarda ona qarşı gerçək bir münasibət yaradır. Mənim Minurə müəllimə xüsusi bir hörmətim var.

Minurə müəllimin xoş rəftarı hamıda yaxınlıq hiss etdirir, beləcə, onunla rahatlıqla söhbət etmək mümkün olur. Mənim çəkingən bir xasiyyətim var, ancaq onunla bu hiss olmur.

Ədalət hamıya eyni yox, kimə necə lazımdırsa elə rəftar etməkdir. Bu sözü elə Minurə müəllim canlandırır. Minurə müəllim heç kim arasında ədalətsizcə fərq qoymur, sadəcə fikir verdikdə görürəm ki, hamıya xasiyyətinə görə yaxınlaşır. Bu da onu nümunəvi müəllim edən xüsusiyyətlərindən biridir. Minurə müəllim bizim üçün bir motivasiyadır. 4-5 saat müddətində duracağımız məktəbdə belə müəllimlərə ehtiyacımız olur. Onun enerjisi, xoş rəftarı və pozitivliyi onu bizə doğmalaşdırır.

Minurə müəllimin gözəl cəhətlərini saymaqla bitmir, bunlardan biri də dəstək göstərən olmasıdır. Ona hər hansı bir mövzuda olan marağınızı və ya xəyallarınızı desəniz həmişə dəstəkləyir. İstər söz olaraq, istər əməldə. O, bir çox mövzunu anlayışla qarşılayır və yardım edir.

Bax, bu saydığım bütün yaxşı xüsusiyyətlər – səbir, anlayış, dəstək vermək, yardım etmək, səmimiyyət, motivasiya, maraqlı və aydın dərs keçmə və s. nümunəvi müəllimdə olanlardır. Buna görə Minurə müəllim mənim gözümdə nümunəvi müəllimdir.

Mənim Minurə müəllimim – Minurə İmanova Sadaxlı 2 nömrəli məktəbi bitirib, İlia Dövlət Universitetində tarix və gürcü dili ixtisasına yiyələnib. Hazırda Qaçağan 1 nömrəli məktəbdə işləyir. Çox arzu edərdim ki, belə müəllimlərimizin sayı çox olsun.

**Banu RAMİN**
*Marneuli rayonu Qacağan 1 saylı ictimai məktəbin 8-ci sinif şagirdi*

# ANAM SÜPÜRGƏÇİ OLDUĞUNA GÖRƏ UTANIRDIM

Anam süpürgəçidir. Bizim məktəbin süpürgəçisi. Birinci sinifdə oxuyanda buna görə utanırdım, çünki sinif yoldaşlarım mənə deyirdilər: "Ananla tualetdə qarşılaşdıq, unitazı təmizləyirdi!", yaxud "Anan zibil qablarına sellofan torba keçirirdi!". Mən bundan utanırdım və anamın başqa məktəbdə işləməsini, yaxud özümün başqa məktəbdə təhsil almağımı istəyirdim.

Sinif yoldaşlarımdan biri ingilis dili müəlliminin övladıdır və ona həmişə deyirlər: "Necə möhtəşəm anan var! Xaricdə təhsil aldığı necə də hiss olunur!". Həmin müəllimin övladı olmağı çox istəyirəm, çünki hamı məni sevəcək və heç kim məni məsxərəyə qoymayacaq. Bir dəfə anama yenə dedim: "Bizim məktəbdə işləməyin xoşuma gəlmir!". "Mənim də xoşuma gəlmir!" – deyə cavab verdi. Atamdan ayrılıb və özü pul qazanmaq istəyir. Başqa yerdə də təmizlik işində işləyir, ofisləri və evləri təmizləyir.

Anam ali təhsil almayıb. Bunu sinif yoldaşlarıma demirdim. Əvvəl uşaqlara demişdim ki, guya anam rəssamdır, amma emalatxanası rəsmləri ilə birlikdə yanıb, indi yeni emalatxana, kətan, boyalar almaq üçün süpürgəçi işləyir. Bütün uşaqlar buna inanmışdılar. Bir neçə həftə anama görə utanmadım. Ancaq bir gün dəhşətli hadisə baş verdi və anam ağlaya-ağlaya evə gəldi.



Sinif yoldaşlarım ondan xahiş ediblər ki, rəsm çəksin. Anama qələm, kağız veriblər. Anam isə rəsm çəkə bilmədiyini deyib... Anam ağlayırdı, çünki uşaqlar mənim danışdığım yalanı anama danışmışdılar. Sonra anama gülüb çıxıb gediblər. Növbəti gün bütün sinif mənə güldü, məni yalançı deyə çağırırdılar.

Bir hadisəni xatırladım. Bir dəfə müəllim telefonu çəkib əlimdən aldı və masaya çırpdı, telefon çatladı. Telefon mənim deyildi, anası ingilis dili müəllimi olan uşağın idi. Həmin qız müəllimin üstünə hücum etdi: "Mənim telefonumu niyə sındırdınız?!" Müəllim isə məni göstərərək ondan üzr istədi: "Mən elə bildim onun telefonudur, yoxsa Elzanın qızının telefonunu necə sındırardım!" Qəlbim nifrətlə doldu. Məktəbə də nifrət etdim, sinif yoldaşlarıma da, müəllimə də... İngilis dilini, rəsm çəkməyi öyrənməyən, məhz mənim təhsil aldığım məktəbdə tualet təmizləyən anama da nifrət etdim...

***Müəlliflər: Maia Sarişvili, Aleks Çiqvinadze.***
***"Mənimlə dostluq et! Məktəbdə təkəm!" kitabından.***
***Kitab məktəb şagirdləri tərəfindən təqdim edilmiş real hekayələrə əsaslanır və İlia Ədalət İnstitutunun "Məktəbdə bulinqə qarşı sistem yaradılması üçün advokatlaşdırma/ "Mənimlə dostluq et! Məktəbdə təkəm!" layihəsi çərçivəsində hazırlanıb. Layihə "Açıq Cəmiyyət – Gürcüstan"ın maliyyə dəstəyi ilə həyata keçirilir.***
***Gürcü dilindən tərcümə etdi Aynurə Əliyeva***

# AĞA MƏHƏMMƏD ŞAH QACARIN TİFLİS ŞƏHƏRİNƏ HÜCUMU

## ALEKSANDRE ORBELİANİ



*(əvvəli ötən sayda)*

O biri günün səhəri çar Solomanın göndərdiyi adam Çar İrakliyə şəhərin demək olar ki, yarısının yığışıb getdiyini bildirən zaman, yuxarıda qeyd etdiyimiz kimi, karaullar Ağa Məhəmməd şah Qacarın da yığışıb getdiyini bildirdilər. Şəhərlilərə də müjdəçilər göndərildikdə buna daha çox əmin oldular: Görəsən bizi aldatmırlar? – Buna görə də şəhərlilər düşünmədən şəhərdə qaldılar və hamısı çar İrakliyə Allahdan uzun ömür diləyərdilər. Çar İrakli Ağa Məhəmməd şah Qacarın səfirini tutdurub şəhərə ki göndərdi, yuxarıda xatırlatdığımız kimi, bazar ertəsi gecə gizli şəkildə Artem Araratski onu aradan çıxartdı və Ağa Məhəmməd şah Qacarın yanına gətirdi. Ağa Məhəmməd şah Qacar onu məzəmmət etdi: İndiyədək harda idin? – Səfir özünü doğrultdu, sonra səfirdən onların yığışıb getmə səbəbini soruşdu. Budur Ağa Məhəmməd şah Qacarın cavabı: "Çar İrakli Nadir şahın yetirməsidir. O mənimlə müharibəyə heç də başlamadı, məni öz şəhərinin girəcəyinə gətirdi, iki gün böyük savaş etdik və ondan heç nəyi əskildə bilmədik; Görünür, çar İraklinin o dərədə gizlədilmiş böyük qoşunu vardır və mənə bilərəkdən az göstərdi, yoxsa, az qoşunu olsaydı, bu işi mənə edə bilməzdi *(Ağa Məhəmməd şah Qacar öldürüldükdən sonra çar İrakli Gəncə qalasını alanda Cavad xanı çıxartdı və son vaxtda yaxşıca özünə çəkdi. Qeyd etmək lazımdır ki, o İrakliyə dedi: "Ağa Məhəmməd şah Qacarın qoşunu o iki günlük müharibədə on minə qədər adam itirdi).*

Mən görürəm ki, çar İrakli mənim üçün belə bir şey planlaşdırır, əgər getməsəm, sonda peşman olum?" Səfir and içərək onu əmin etdi: Çar İraklinin sizin gördüyünüz qədər ordusu yoxdur, Artem Araratskinin dediyi ordudan çox: O dövrün qoruyucusu şəhərin adamlarını ələ aldı və ya onlara pul verdi, bundan sonra şəhərdən necə çıxartdı, ya şəhər qalasının divarından necə çıxdılar, ya da o dağlara necə çıxardı – bütün bunlar incəliklə Artem Araratskinin əməlini nəql etdi və bununla Artem Aratskinin ismarıcını bildirdi: Şəhər əhvalatı, onları qorxutması və şəhərin yarısının yığışıb getməsi və sair... Səfir tərəfindən Ağa Məhəmməd şah Qacar əmin edildi və bundan sonra yenə ondan məsləhət istədi: Bəs, nə etməliyəm?

– "Mənə altı min döyüşçü ver, mən bu tərəfin kəsə yollarını indi yaxşı bilirəm. Kəsə yollardan biri ilə irəliləyib çar İraklinin arxasına keçəcəyəm, bu tərəfə siz gedəcəksiniz, öz qoşunu ilə ortada tələyə düşürərik və idarə olunmaz hala salarıq".

Bu məsləhət onun çox xoşuna gəldi, amma beş mindən artıq döyüşçü vermədi və bu qoşunla yola saldı.

Bu qədər bədbəxtliklə yanaşı bu səhər o qədər çən-duman oldu ki, yüz addımlıq məsafə daha müəyyən edilmirdi. Səfir öz qoşunları ilə gələndə, Ağa Məhəmməd şah Qacar bir az sonra geri qayıdıb onları şəhərə doğru apardı. Çar İraklinin öncül karaulları onları sezdilər, qızılbaşların yenidən qayıtdıqları xəbərini Soğanlığın o dar yollarında öz qoşunu ilə yeni qazılmış səngərlərdə dayanmış çara bildirdilər. Bu son xəbər İrakliyə çatanda o, Solomana dedi: Nədənsə səni pis əhval-ruhiyyəyə saldım. Buna görə ikinci çərşənbə axşamının səhəri, yəni sentyabrın 11-də o dar yolları iki-üç yerdə bağlatdırmışdı, bunun üçün də daş, qaya parçası, çınqıl və əllərinə nə keçdisə yolun ortasına tökdürdü: Böyük qoşunun bəriyə gəlməsi üçün çətin olsun deyə, ona kimi də işimizi görə bilək.

İrakliyə Ağa Məhəmməd şah Qacarın qayıtması xəbəri veriləndə o, qışqırdı: "Nəyi düşünürdümsə, o da baş verdi. İndi tələsik çəkilək və şəhərin ağzındakı toplarımızın yanına gedək. Əgər bu dəhşətli duman olmasaydı, nəinki qoşun, heç bir qızılbaş döyüşçüsü getmək istədiyi yerə gedə bilməzdi. Amma dumandan qorxuram". *(Kocori, yəni Tabaxmela dağ yollarını çar Davit tutmuşdu. Çar İraklinin isə ümidi var idi ki, o tərəfə, dağa heç kimi buraxmayacaqdı. Sonra aydın şəkildə oxuyacağıq).* Eyni zamanda Solomanın yanına yaxşı atlı bir adam göndərdi: Bəli, tez topun yanında qoşununla məni qarşıla, özün də orduya münasib olaraq bəri çəkil, tez. Amma qızılbaşlar onu üstələdilər və topların başının üstünü aldırdılar. Bu qədər bədbəxtliyə bir bədbəxtlik də əlavə olundu. Bu zaman duman çəkildi və qızılbaşlar topları gördülər, bunu o min imerelilər təsdiqlədlər: Çar İrakli öz ordusu ilə sıradan çıxarılıb, yoxsa qızılbaşların qoşunu bu tərəfdə nə gəzirdi? – Topların başçısı çar İraklinin mayoru tavad Giorgi Quramişvili bir azca gözləmək üçün neçə dəfə yalvardı: Siz nəyi düşünürsünüzsə, yalandır. Lakin bunu etmədilər, şəhərə bu xəbəri gətirdilər, bu zaman çar Soloman ordusu ilə Hamamlar qapısında dayanıb öz babasının əmrini gözləyirdi: Hara buyuracaqsa, ora da gedəcəyəm. Amma çar İrakli o adamı çar Solomanın yanına göndərdi: Məni topların yanında qarşıla, o adamın Kocorinin öncül Qızılbaş ordusunun adamları rastına çıxdılar və orada onu öldürdülər.

İmeretinin o min döyüşçüsü bu xəbəri çar Solomana çatdırdılar: Qızılbaşlar çar İraklini öz ordusu ilə tamamilə qırıb məhv etdilər, topları götürüb apardılar və biz güclə sağ qaldıq. Gənc adam çar Solomanı bu anlaşılmaz yalanla qaçırıb, tələsik İmeretiyə apardı.

Sakitləşən şəhərin demək olar ki, yarısının əhalisi bir-birini əmin etdi: "İmerelilər bizə xəyanət etdi, yoxsa bu səhər bizə müjdəçi gəlməzdi ki, Ağa Məhəmməd şah Qacar yığışıb tələsik getdi", deyə. Bu hadisələrdə şahzadə David dörd yüz nəfərlə və dörd topla Kocori, yaxud Tabaxmela dağının yollarını bağlamışdı ki, Ağa Məhəmməd şah Qacarın hərəkəti, hara getdiyi ilə bağlı çara xəbər verə.

Məlumdur ki, əgər dağ yolu ilə Qızılbaş qoşunu gəlsəydi, dərhal toplar atılmalı idi ki, xəbər versinlər: Dağın üzərindən Qızılbaş qoşunu gəlir. Top səsini eşidib qaçanlarla özü də vuruşurdu; O, ordusu ilə tələsik topların yanına gələcəkdi, onda Qızılbaş ordusu çar İrakliyə heç nə edə bilməyəcəkdi, lakin Qızılbaş ordusu şahzadə Davidin dayandığı kəsə dağ yolundan keçəndə bir dənə də olsun atıcıya rast gəlmədi və sərbəst keçdilər. Əgər şahzadə David topları orada qoymasaydı və oradan çıxmasaydı, bu qədər atıcı ilə və topla o dağı möhkəmləndirərdi, qızılbaşları bura buraxmazdı.

*(davamı növbəti sayda)*

Gürcü dilindən tərcümə edən:
**Mirzə MƏMMƏDOĞLU**

İCTİMAİ QƏZET ❀ yeniyolqazeti@gmail.com ❀ “იენი იოლი” საზოგადოებრივი გაზეთი ❀ HAQQIN SÖZÜ – SÖZÜN HAQQI

31 MART
2025-Cİ İL
№ 06 (223)

# Yeni YOL

Qəzet 17 iyun 2015-ci il tarixindən nəşr olunur.

## YETKİNLİK YAŞINA ÇATMAMIŞ MƏHKUMLARIN SAYI SON ÜÇ İLDƏ 75 % ARTIB



Son üç ildə yetkinlik yaşına çatmamış məhkumların sayı 75 % artıb (2022-ci ildə bu göstərici 251 idi, 2024-cü ildə isə 440). Azadlıqdan məhrum edilmiş yeniyetmələrin sayı 78 % artıb. 2022-ci ildə 79, 2024-cü ildə isə 141 yeniyetmə azadlıqdan məhrum edilib. Göstəriciləri Ali Məhkəmənin məlumatlarına istinadən Milli Statistika Xidməti yayıb.

2024-cü ildə qəsdən adamöldürməyə görə 5 yeniyetmə azadlıqdan məhrum edilib. Onlardan 1-i qız, 4-ü oğlandır. Bu göstərici 2023-cü illə müqayisədə (9 məhkum) azalıb və 2022-ci ilin göstəricilərinə bərabərdir (5 məhkum).

Son 3 ildə yetkinlik yaşına çatmamış şəxslər tərəfindən törədilmiş oğurluq faktları mühüm dərəcədə artıb. 2022-ci ildə oğurluğa görə 145 yeniyetmə məhkum edilib. Onlardan 143-ü oğlan, 2-si qızdır. 44 yeniyetmə azadlıqdan məhrum edilib.

2023-cü ildə oğurluğa görə məhkum edilmiş 258 yeniyetmədən (22 qız, 236 oğlan) 62 nəfəri həbs olunub, 2024-cü ildə 270 məhkumdan (25 qız, 245 oğlan) 245 yeniyetmə azadlıqdan məhrum edilib.

2024-cü ildə zorlama cinayəti ilə bağlı 5 yeniyetmə məhkum edilib, onların hamısına həbs cəzası verilib.

*Mənbə: edu.aris.ge*

## 16 YAŞA QƏDƏR OLAN 250088 UŞAQ SOSİAL YARDIM ALIR



Sosial Xidmət Agentliyi sosial yardım alan 16 yaşa qədər olan uşaqlar haqqında 2025-ci ilin statistikasını yayımlayıb.

Sənədə əsasən, Gürcüstan miqyasında 250088 aztəminatlı uşaq var. Tbilisidə bu göstərici 55702-yə bərabərdir.

Regionların statistikasına gəlidikə isə, Quriyada 16 yaşa qədər sosial yardım alan uşaqların sayı 9186, Raça-Leçxumi və Kvemo Svanetidə 2645, Kaxetidə 24318, İmeretidə 30570, Mtsxeta-Mtianetidə 6311, Sameqrelo-Zemo Svanetidə 27176, Samtsxe-Cavaxetidə 7802, **Kvemo Kartlidə 41407**, Şida Kartlidə 19020, Acarada və Zemo Abxaziyada 25951-dir.

Qeyd edək ki, 2023-cü ildə bu göstərici 230995, 2024-cü ildə isə 247696 idi.

*Mənbə:etaloni.ge*

## BUĞDA UNU, ARPA VƏ KƏPƏK İDXALINA TƏTBİQ EDİLƏN MÜVƏQQƏTİ RUSUMUN MÜDDƏTİ QEYRİ-MÜƏYYƏN MÜDDƏTƏ UZADILIB



Gürcüstan hökuməti Rusiyadan un, arpa və kəpək idxalına tətbiq edilən müvəqqəti rüsumun müddətini qeyri-müəyyən müddətə uzadıb. Bu barədə Gürcüstan hökumət administrasiyasından məlumat verilib.

Məlumatda bildirilib ki, taxıl məhsuluna tələbat olmadığından onu satmaqda problem yaşayan gürcü fermerlərinə dəstək məqsədilə Gürcüstan 2023-cü ilin yayından un, arpa və kəpək idxalına müvəqqəti rüsum tətbiq edib və bu müddət bir neçə dəfə uzadılıb.

Hökumətin bu il fevralın 28-də qəbul etdiyi qərara əsasən, 200 kiloqramdan artıq buğda ununun idxalına indi 0,25 lari deyil, kiloqramı üçün 0,3 lari (tonuna 300 lari) vergi tutulur. 200 kiloqramdan artıq arpa və kəpəyin idxalına indi hər kiloqramı 0,1 lari deyil, 0,2 lari vergi tutulur.

Qeyd edək ki, əvvəlcə unun idxalına tətbiq olunan rüsum 2023-cü il noyabrın 1-dək qüvvədə idi, sonra isə 2024-cü il sentyabrın 1-dək uzadıldı. Sonuncu qərara əsasən rüsum tətbiqi 2025-ci il aprelin 1-dək uzadılmışdı.

Hökumət bəyan edib ki, rüsumun tətbiq edilməsində məqsəd gürcü buğdasının rəqabət qabiliyyətini artırmaq və yerli bazarda satışını asanlaşdırmaqdır. Hökumət bu qərarı sektorun çörəyin bahalaşmasına imkan verməməsi şərti ilə qəbul edib.

Lakin çörək istehsalçıları onun ləğvini tələb edirlər, çünki onların fikrincə, son vaxtlar dünya bazarlarında unun bahalaşması ölkədə çörəyin bahalaşmasına səbəb ola bilər.

## NARKOMANLARIN MƏCBURİ MÜALİCƏSİ NƏZƏRDƏN KEÇİRİLİR

Gürcüstanda narkomaniyadan əziyyət çəkən insanlar üçün məcburi müalicənin tətbiqi imkanı nəzərdən keçirilir. Bu barədə Gürcüstan parlamentinin hüquq məsələləri üzrə komitəsinin rəhbəri Arçil Qorduladze komitənin iclasında bildirib.

“Biz narkomanların müalicə formaları ilə bağlı fəal məsləhətləşmələr aparırıq, o cümlədən ehtiyacı olanların məcburi müalicəyə cəlb olunmasının mümkün mexanizmlərini müzakirə edirik. Bu məsələyə parlamentdə növbəti müzakirələr zamanı aydınlıq gətirilə bilər”, – o qeyd edib.

Qorduladzenin sözlərinə görə, hökumət narkotrafiklə mübarizəni gücləndirmək niyyətindədir, eyni zamanda narkomanlara yardıma diqqət yetirməyi planlaşdırır.

Xatırladaq ki, daha əvvəl hakim Gürcü Arzusu – Demokratik Gürcüstan Partiyası müxalif “Xalqın Gücü” qrupu ilə birlikdə narkotiklərin qanunsuz dövriyyəsinə görə cəzanı sərtləşdirən qanun layihəsini parlamentə təqdim edib. Dəyişikliklərə əsasən, qadağan olunmuş maddələrin cüzi miqdarda belə satışı 20 ilədək və ya daha çox müddətə azadlıqdan məhrumetmə ilə nəticələnəcək.

## GÜRCÜSTANIN XARİCİ TİCARƏT DÖVRİYYƏSİ 15,4 FAİZ ARTIB

Milli Statistika Xidmətinin yaydığı məlumata əsasən, Gürcüstanın xarici ticarət dövriyyəsi 2025-ci ilin yanvar-fevral aylarında ötən ilin eyni dövrü ilə müqayisədə 15,4 faiz artaraq 3,6 milyard dollar təşkil edib.

Məlumatda bildirilib ki, hesabat dövründə ölkəyə 2,7 milyard dollarlıq məhsul idxal edilib və bu da 2024-cü ilin yanvar-fevral aylarının göstəricisindən 19,5 faiz çoxdur. İxrac isə 835,4 milyon dollar təşkil edib ki, bu da 2024-cü ilin yanvar-fevral ayları ilə müqayisədə 4 faiz çoxdur.

Gürcüstanın xarici ticarətində 1,9 milyard dollar saldo yaranıb, bu da ötən ilin analoji göstəricisindən 53,1 faiz çoxdur.

Təsisçi:
“Gürcüstan Gənclərinə Yardım və Maarifləndirmə Təşkilatı”

Redaktor: Azər MUSAOĞLU
Yayım direktoru: Hacı BƏKİROĞLU
Qrafik dizayn: Elsevər ƏHMƏDOV

ÜNVAN: Rustavi şəh., Şartava küç. 12 b.
TEL: (+995) 555 96 18 68
599 54 12 92
İMEYL: yeniyolqazeti@gmail.com

Yazılar yalnız elektron variantda qəbul edilir və onlara rəy verilmir. Müəlliflə redaksiyanın mövqeyi müxtəlif ola bilər. Qəzet hələlik ictimai əsaslarla yayımlanır və pulsuz paylanır. Qəzetdə müxtəlif informasiya agentliklərinin xəbərlərindən də istifadə olunur.